UOT 321 ;323
DOI: https://doi.org/10.30546/25194011.2026.201.2.4.5028

# MİLLİ DÖVLƏTİN KONSTİTUSİON ƏSASLARI: AZƏRBAYCAN TƏCRÜBƏSİNDƏ

**ELDAR CAMAL OĞLU SALAYEV**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının doktorantı*
*Azərbaycan Respublikası, Bakı ş., Səbail r., AZ 1001, Lermontov küç. 74*
*E-mail: salayevec@gmail.com*

## XÜLASƏ

Məqalə Azərbaycan Respublikasında milli dövlət modelinin konstitusion əsaslarını dövlət idarəçiliyi prizmasından təhlil etməyə həsr olunmuşdur. Tədqiqatın əsas məqsədi Konstitusiyanın dövlət idarəçiliyinin institusional təşkili, səlahiyyət bölgüsü və icra hakimiyyətinin legitimliyinin formalaşmasında oynadığı rolu sistemli şəkildə araşdırmaqdır. Məqalədə Konstitusiyanın yalnız hüquqi-normativ sənəd kimi deyil, eyni zamanda idarəetmənin struktur memarlığını, qərarqəbuletmə mexanizmlərini və institusional koordinasiyanı müəyyən edən fundamental çərçivə kimi çıxış etdiyi əsaslandırılır. Xüsusilə güclü icra hakimiyyəti modelinin formalaşması, Prezident institutunun sisteminteqrator funksiyası, Nazirlər Kabinetinin inzibati icra mexanizmi kimi rolu və yerli icra hakimiyyətlərinin mərkəzləşdirilmiş idarəetmə strukturu konstitusion müddəalar əsasında təhlil edilir. Məqalədə Azərbaycan modeli epizodik şəkildə Türkiyə, Qazaxıstan və Fransa kimi oxşar və müqayisə edilə bilən idarəetmə sistemləri ilə müqayisə olunur və bu müqayisələr vasitəsilə konstitusion mərkəzləşmənin dövlətin sabitliyi və idarəolunanlığı baxımından yaratdığı funksional üstünlüklər göstərilir. Eyni zamanda, icra hakimiyyətinin legitimliyinin yalnız səlahiyyətlərin genişliyi ilə deyil, hüquqi nəzarət, institusional məsuliyyət və idarəetmə effektivliyi ilə tamamlandığı vurğulanır. Məqalə 2025-ci ilin Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan edilməsi fonunda konstitusion əsasların milli dövlətin idarəetmə qabiliyyətinin möhkəmləndirilməsindəki rolunu ayrıca aktuallaşdırır və gələcək islahatlar üçün mövcud institusional çərçivənin verdiyi imkanları ümumiləşdirir.

**Açar sözlər:** *milli dövlət, konstitusiya, icra hakimiyyəti, dövlət idarəçiliyi, suverenlik.*

## Giriş

Tədqiqatın aktuallığı ondan irəli gəlir ki, müasir dövlət idarəçiliyi şəraitində milli dövlətin konstitusion əsasları yalnız hüquqi norma və prinsiplər toplusu kimi deyil, eyni zamanda icraedici hakimiyyətin təşkili, qərarqəbuletmə mexanizmləri və institusional koordinasiyanın effektivliyini müəyyən edən əsas çərçivə kimi çıxış edir. Xüsusilə postsovet məkanında dövlət idarəçiliyinin transformasiyası fonunda konstitusion modelin real idarəetmə praktikasına necə transfer olunduğu, balansın necə qurulduğu və dövlətin strateji idarəetmə qabiliyyətinin hansı hüquqi dayaqlara söykəndiyi aktual elmi və praktik suallar doğurur. Azərbaycan Respublikasının təcrübəsi bu baxımdan konstitusion legitimlik ilə inzibati idarəetmə arasında qarşılıqlı əlaqənin öyrənilməsi üçün əhəmiyyətli empirik material təqdim edir.

Bu baxımdan, tədqiqatımızın məqsədi Azərbaycanın milli dövlət modelində konstitusion əsasların dövlət idarəçiliyinin institusional quruluşuna və icra mexanizmlərinə təsirini təhlil etməkdir. Həm də nəzərə almaq lazımdır ki, 2025-ci ilin Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan edilməsi konstitusion əsasların dövlət idarəçiliyində oynadığı rolun yenidən nəzərdən keçirilməsini xüsusi aktuallıq səviyyəsinə çıxarmışdır. Bu kontekstdə, suverenliyin yalnız siyasi-hüquqi kateqoriya kimi deyil, eyni zamanda effektiv və mərkəzləşdirilmiş dövlət idarəçiliyini təmin edən institusional güc kimi dəyərləndirilməsi tədqiqatın məntiqi çərçivəsini tamamlayır.

## Konstitusion çərçivədə dövlət idarəçiliyinin institusional təşkili və səlahiyyət bölgüsü

Konstitusion çərçivədə dövlət idarəçiliyinin institusional təşkili və səlahiyyət bölgüsü məsələsi, xüsusilə güclü icra hakimiyyəti modelinə malik ölkələrdə dövlətin funksional effektivliyini anlamaq baxımından mərkəzi əhəmiyyət daşıyır [4]. Azərbaycan modeli bu kontekstdə icra hakimiyyətinin institusional üstünlüyü ilə seçilən bir sistem kimi xarakterizə olunur. Bu modeldə konstitusiya yalnız hüquqi norma toplusu deyil, eyni zamanda dövlət idarəçiliyinin struktur memarlığını müəyyən edən əsas siyasi-inzibati sənəd funksiyasını yerinə yetirir. İdarəetmənin institusional təşkili klassik hakimiyyət bölgüsü prinsipinə formal şəkildə əsaslansa da, real idarəetmə praktikasında icra hakimiyyətinin koordinasiyaedici və yönləndirici rolu dominantdır ki, bu da müasir dövlət idarəçiliyi nəzəriyyələrində "gücləndirilmiş icra modeli" kimi izah olunur [3]. Azərbaycan Respublikası ilə oxşar konstitusion-idarəetmə sisteminə malik ölkələrdən biri Türkiyə Respublikasıdır. Türkiyədə 2017-ci ildən sonra tətbiq olunan prezident idarəetmə sistemi konstitusion səviyyədə icra haki-

miyyətini həm siyasi rəhbərlik, həm də inzibati koordinasiya mərkəzi kimi möhkəmləndirmişdir. Bu modeldə səlahiyyət bölgüsü formal olaraq qorunsa da, M.Veberin rasional-hüquqi hakimiyyət konsepsiyası çərçivəsində icraedici strukturun effektivliyi ön plana çəkilir. Prezidentin həm dövlət başçısı, həm də icra hakimiyyətinin rəhbəri kimi çıxış etməsi idarəetmədə iyerarxik aydınlığı artırır və qərarqəbuletmə proseslərini sürətləndirir [9].

Oxşar xüsusiyyətlər Qazaxıstan nümunəsində də müşahidə olunur. Qazaxıstan konstitusion sistemi uzun müddət güclü prezident institutuna əsaslanmış və dövlət idarəçiliyinin institusional təşkili mərkəzləşmiş icra hakimiyyəti üzərində qurulmuşdur. Burada səlahiyyət bölgüsü daha çox funksional əmək bölgüsü kimi işləyir, yəni qanunverici və məhkəmə hakimiyyətləri normativ çərçivədə mövcud olsa da, icra hakimiyyəti dövlət siyasətinin real formalaşdırıcısı rolunu oynayır [12]. Yeni institusionalizm nəzəriyyəsi baxımından bu tip sistemlərdə konstitusiya formaldan çox, institusional davranışları tənzimləyən əsas “oyun qaydaları” funksiyasını daşıyır [10]. Azərbaycan və Qazaxıstan təcrübəsi göstərir ki, postsovet məkanında dövlət quruculuğu prosesində konstitusion mərkəzləşmə dövlətin sabitlik və idarəolunanlıq ehtiyacları ilə sıx bağlıdır.

Digər bir oxşar nümunə Fransa respublikası modelidir. Fransa konstitusion sistemi klassik hakimiyyət bölgüsü prinsipinə söykənsə də, prezident institutunun güclü mövqeyi icra hakimiyyətinin digər hakimiyyət qolları üzərində siyasi çəkisini artırır. Burada dövlət idarəçiliyinin institusional təşkili dual icra modelinə əsaslanır: prezident strateji istiqamətləri müəyyən edir, hökumət isə inzibati icranı həyata keçirir [7]. Bu model X.Linz və M.Dyuverjenin yarı-prezidentlik nəzəriyyələri çərçivəsində izah olunur və icra hakimiyyətinin konstitusion legitimliklə gücləndirilməsinin idarəetmə sabitliyi yaratdığını göstərir. Bu ölkələrin təcrübəsi göstərir ki, konstitusion çərçivədə səlahiyyət bölgüsü həm normativ hüquqi balans məsələsi, həm də eyni zamanda dövlətin idarəetmə fəlsəfəsini əks etdirən institusional seçimdir.

Azərbaycan Respublikasının konstitusiyasına baxsaq əgər, konstitusion çərçivədə dövlət idarəçiliyinin institusional təşkili dövlət hakimiyyətinin quruluş məntiqini müəyyən edən əsas prinsiplər üzərində formalaşır. Konstitusiyanın 7-ci maddəsində dövlət hakimiyyətinin qanunverici, icra və məhkəmə hakimiyyətlərinə bölünməsi təsbit edilir və bu bölgü formal hüquqi balansdan daha çox, idarəetmə sisteminin struktur əsasını yaradır. Bu müddəa dövlət idarəçiliyi baxımından onu göstərir ki, institusional təşkiletmə normativ olaraq diferensiasiya edilmiş funksiyalar üzərində qurulsa da, bu funksiyaların qarşılıqlı əlaqəsi və koordinasiyası idarəetmənin real işləkliyini müəyyən edir. Yəni konstitusiya hakimiyyət bölgüsünü inzibati fragmentasiya məqsədilə deyil, dövlət idarəçiliyində funksional aydınlıq və səmərəlilik yaratmaq üçün nəzərdə tutur. Konstitusiyamızda icra hakimiyyətinin mərkəzi mövqeyi dövlət idarəçiliyinin institusional modelini müəyyən edən əsas elementlərdən biridir. Onun 8-ci maddəsinə əsasən Prezident dövlətin başçısıdır və dövlət hakimiyyətinin vahidliyini təmsil edir, bu isə icra hakimiyyətinin legitimlik mənbəyinin birbaşa konstitusion səviyyədə formalaşdığını göstərir [1]. Prezidentin səlahiyyətlərinin ətraflı şəkildə təsbit edildiyi 109-cu maddə dövlət idarəçiliyində strateji qərarqəbuletmə, mərkəzi icra strukturlarının formalaşdırılması və inzibati sistemin ümumi istiqamətləndirilməsi funksiyalarını bir institusional mərkəzdə cəmləyir. Bu model dövlət idarəçiliyi nəzəriyyəsində icra hakimiyyətinin “sistemintеqrator” rolu ilə izah olunur və idarəetmədə siyasi iradə ilə inzibati icranın bir xətt üzərində uzlaşdırılmasına xidmət edir.

Nazirlər Kabinetinin konstitusion statusu dövlət idarəçiliyinin institusional təşkili baxımından icra hakimiyyətinin daxili strukturunu aydınlaşdırır. Konstitusiyanın 114-cü maddəsinə uyğun olaraq Nazirlər Kabineti Prezidentə tabedir və onun qarşısında məsuliyyət daşıyır ki, bu da inzibati idarəetmədə iyerarxik məsuliyyət mexanizmini hüquqi cəhətdən möhkəmləndirir [1]. Burada səlahiyyət bölgüsü siyasi rəhbərliklə inzibati icra arasında deyil, daha çox funksional səviyyədə qurulur: siyasi-strateji istiqamətlər Prezident tərəfindən müəyyən edilir, Nazirlər Kabineti isə bu istiqamətlərin icrasını təmin edən əsas inzibati mexanizm kimi çıxış edir. Bu yanaşma klassik parlamentar modellərdən fərqli olaraq, icra hakimiyyəti daxilində vahid komanda və operativ idarəetmə məntiqini ön plana çəkir.

Konstitusiyada yerli icra hakimiyyəti orqanlarının statusu da dövlət idarəçiliyinin institusional arxitekturasının mühüm tərkib hissəsidir. 124-cü maddə yerli icra hakimiyyətlərinin Prezident tərəfindən təyin edildiyini təsbit etməklə mərkəzi icra hakimiyyəti ilə ərazi idarəçiliyi arasında birbaşa institusional əlaqə yaradır [1]. Bu model səlahiyyət bölgüsünün desentralizasiya deyil, inzibati şaquli koordinasiya prinsipi üzərində qurulduğunu göstərir. Dövlət idarəçiliyi baxımından bu yanaşma vahid dövlət siyasətinin ölkə üzrə bərabər tətbiqini, icra intizamının qorunmasını və strateji idarəetmənin mərkəzdən bölgələrə qədər uzanan ardıcıllığını təmin etməyə yönəlmişdir. Beləliklə, Azərbaycan Konstitusiyası səlahiyyət bölgüsünü normativ tarazlıqdan çox, funksional idarəetmə effektivliyinə xidmət edən institusional mexanizm kimi formalaşdırır.

**Milli dövlət modelində icra hakimiyyətinin konstitusion legitimliyi və idarəetmə mexanizmləri**

Milli dövlət modelində icra hakimiyyətinin konstitusion legitimliyi Azərbaycan Respublikasının Konstitusiyasında dövlət hakimiyyətinin təşkilinə dair əsas prinsiplər üzərindən formalaşır və bu legitimlik birbaşa xalq suverenliyi ideyasına bağlanır [6]. Konstitusiyanın 2-ci maddəsində hakimiyyətin mənbəyinin xalq olduğu açıq şəkildə təsbit edilir və bu müddəa icra hakimiyyətinin legitimliyinin yalnız hüquqi deyil, eyni zamanda siyasi-sosioloji əsasını müəyyən edir. Dövlət idarəçiliyi baxımından bu yanaşma onu göstərir ki, icra hakimiyyəti texniki-inzibati struktur olmaqdan daha çox, xalq iradəsinin həyata keçirilməsinə məsul mərkəzi institut kimi təqdim olunur. İcra hakimiyyətinin milli dövlət modelindəki mərkəzi rolu Konstitusiyanın 8-ci maddəsində Prezidentin dövlət başçısı kimi müəyyən edilməsi ilə daha da möhkəmlənir. Prezident dövlətin daxili və xarici siyasətinin əsas istiqamətlərini müəyyən edən ali icraedici subyekt kimi çıxış edir və bu status icra hakimiyyətinə institusional vahidlik qazandırır [8]. Dövlət idarəçiliyi nəzəriyyəsində bu yanaşma "vahid icra mərkəzi" modelinə uyğun gəlir və xüsusilə dövlət quruculuğu mərhələsini yaşamış ölkələrdə idarəetmənin stabilliyini təmin edən mexanizm kimi izah olunur [10]. Azərbaycan kontekstində, bu model icra hakimiyyətinin fragmentasiyasının qarşısını almağa və strateji qərarların icrasında ardıcıllıq yaratmağa xidmət edir.

Konstitusiyanın 109-cu maddəsində Prezidentin səlahiyyətlərinin geniş şəkildə müəyyən edilməsi icra hakimiyyətinin legitim idarəetmə mexanizmlərini konkretləşdirir [1]. Burada normativ aktların imzalanması, mərkəzi icra orqanlarının yaradılması və ləğvi, eləcə də dövlət siyasətinin icrasına nəzarət funksiyaları icra hakimiyyətinin hüquqi alətlərini təşkil edir [2]. Dövlət idarəçiliyi nəzəriyyəsində bu cür səlahiyyət konsentrasiyası icraedici effektivliyin artırılması ilə əsaslandırılır və "strateji liderlik" anlayışı ilə izah olunur.

Nazirlər Kabinetinin konstitusion statusu icra hakimiyyətinin daxili idarəetmə mexanizmlərini izah edən əsas elementlərdən biridir. Konstitusiyanın 114-cü maddəsinə əsasən Nazirlər Kabineti Prezident qarşısında məsuliyyət daşıyır və onun qərarlarının icrasını təmin edir. Bu struktur idarəetmədə siyasi rəhbərliklə inzibati icra arasında funksional bölgü yaradır, lakin bu bölgü klassik parlament modellərindəki kimi avtonom deyil. İcra hakimiyyətinin konstitusion legitimliyinin mühüm komponentlərindən biri də normativ tənzimləmə səlahiyyətidir. Prezident fərmanları və sərəncamları dövlət idarəçiliyində çevik və operativ qərarqəbuletmə mexanizmi yaradır və bu mexanizm Konstitusiyada nəzərdə tutulan hüquqi çərçivə daxilində fəaliyyət göstərir [2]. Dövlət idarəçiliyi baxımından bu alətlər klassik qanunvericilik prosedurlarını əvəz etmir, onları tamamlayır və idarəetmədə vaxt amilinin kritik olduğu hallarda effektivliyi təmin edir [11]. Bu cür mexanizmlər beynəlxalq müqayisədə Fransa yarı-prezident modelində və Türkiyənin prezident idarəetmə sistemində də müşahidə olunur.

Yerli icra hakimiyyətlərinin konstitusion təşkili icra hakimiyyətinin milli dövlət miqyasında legitimliyini genişləndirən mexanizm kimi çıxış edir. Konstitusiyanın 124-cü maddəsi yerli icra hakimiyyəti başçılarının Prezident tərəfindən təyin edilməsini nəzərdə tutur və bu, mərkəzi icra hakimiyyəti ilə ərazi idarəçiliyi arasında birbaşa institusional bağ yaradır [1]. Dövlət idarəçiliyi nəzəriyyəsində bu model inzibati unitarizm kimi xarakterizə olunur və vahid dövlət siyasətinin bütün ərazi üzrə eyni standartlarla həyata keçirilməsini təmin etməyə yönəlir.

İcra hakimiyyətinin konstitusion legitimliyi həm də məsuliyyət mexanizmləri ilə tamamlanır. Konstitusiya icra hakimiyyətini hüquqi çərçivə daxilində fəaliyyət göstərməyə məcbur edir və məhkəmə hakimiyyətinin mövcudluğu icraedici səlahiyyətlərin normativ sərhədlərini müəyyən edir [5]. Bu baxımdan legitimlik yalnız səlahiyyət genişliyi ilə deyil, həmin səlahiyyətlərin hüquqi nəzarət altında olması ilə möhkəmlənir.

Beynəlxalq müqayisə baxımından Azərbaycan modeli nə tam parlamentar, nə də klassik prezident respublikasıdır, daha çox funksional baxımdan gücləndirilmiş icra hakimiyyətinə əsaslanan hibrid modeldir. Oxşar tendensiyalar postsovet məkanında və inkişaf etməkdə olan milli dövlətlərdə müşahidə olunur, burada konstitusion dizayn idarəetmənin sabitliyini prioritet götürür. Bu ölkələrdə icra hakimiyyətinin legitimliyi yalnız seçki mexanizmlərinə deyil, dövlətin effektiv idarə olunması qabiliyyətinə bağlanır. Azərbaycan Respublikasının təcrübəsi də bu kontekstdə milli dövlətin institusional möhkəmlənməsi mərhələsi ilə uzlaşır. Nəticə etibarilə, milli dövlət modelində icra hakimiyyətinin konstitusion legitimliyi Azərbaycan Respublikasının Konstitusiyasında vahid siyasi iradə, hüquqi əsaslandırma və funksional idarəetmə mexanizmlərinin sintezi üzərində qurulmuşdur. Bu legitimlik icra hakimiyyətinə yalnız səlahiyyət vermir, eyni zamanda onu dövlət idarəçiliyinin əsas daşıyıcı institutu kimi məsuliyyət altına alır. Dövlət idarəçiliyi baxımından bu model normativ balansdan daha çox, institusional effektivlik və suveren idarəetmə qabiliyyətini ön plana çəkən müasir milli dövlət yanaşmasını əks etdirir.

Növbəti illərdə islahatlar yolu ilə mövcud vəziyyətin dəyişməsi ən çox icra hakimiyyətinin institusional texnologiyalarının təkmilləşdirilməsi və idarəetmə mexanizmlərinin daha rasionallaşdırılması istiqamətində baş verə bilər. Konstitusion çərçivənin əsas konturları qorunmaqla, icra hakimiyyəti daxilində səlahiyyətlərin funksional bölgüsünün dərinləşdirilməsi, mərkəzi icra orqanlarının fəaliyyətində nəticəyönümlü idarəetmə, strateji planlaşdırma və performans əsaslı qiymətləndirmə mexanizmlərinin gücləndirilməsi ehtimal olunur. Bu proses klassik hakimiyyət bölgüsündən daha çox, müasir idarəçilik nəzəriyyələrində önə çıxan səmərəli idarəetmə (good governance) elementlərinin selektiv şəkildə tətbiqi ilə müşayiət oluna bilər. Belə bir transformasiya icra hakimiyyətinin konstitusion legitimliyini zəiflətmədən; əksinə, onun effektivlik, şəffaflıq və institusional etimad ölçüləri üzərindən yenidən möhkəmlənməsinə gətirib çıxara bilər.

## Nəticə

Nəticə etibarilə aparılan təhlil göstərir ki, Azərbaycan Respublikasında milli dövlət modelinin konstitusion əsasları dövlət idarəçiliyinin institusional quruluşunu və icra hakimiyyətinin fəaliyyət məntiqini sistemli şəkildə formalaşdırır. Konstitusiya bu çərçivədə yalnız hüquqi-siyasi sənəd kimi deyil, eyni zamanda idarəetmənin struktur arxitekturasını, səlahiyyət bölgüsünün funksional məzmununu və icra hakimiyyətinin legitimliyinin əsaslarını müəyyən edən fundamental mexanizm kimi çıxış edir. Dövlət hakimiyyətinin bölgüsü prinsipi formal tarazlıqdan daha çox, idarəetmənin operativliyi və strateji yönümlülüyü baxımından şərh olunur və bu, Azərbaycan modelinin gücləndirilmiş icra hakimiyyəti üzərində qurulan spesifik xüsusiyyətini aydın şəkildə ortaya qoyur.

Analitik baxımdan, icra hakimiyyətinin konstitusion legitimliyi Azərbaycanda klassik liberal balans mexanizmlərindən fərqli olaraq, vahid siyasi iradə və mərkəzləşdirilmiş idarəetmə fəlsəfəsi üzərində inşa edilmişdir. Prezident institutunun dövlət idarəçiliyində sisteminteqrator rolunda çıxış etməsi, Nazirlər Kabinetinin bu iradəni inzibati səviyyədə icra edən əsas mexanizm kimi təşkili və yerli icra hakimiyyətlərinin mərkəzə tabe institusional strukturlar kimi formalaşdırılması milli dövlətin suveren idarəetmə qabiliyyətini gücləndirən əsas amillərdir. Bu model xüsusilə postsovet məkanında dövlət quruculuğu və sabitlik ehtiyacları fonunda idarəetmənin effektivliyini və qərarqəbuletmə ardıcıllığını təmin edən funksional üstünlüklər yaradır.

Digər tərəfdən, aparılan təhlil onu da göstərir ki, mövcud konstitusion model islahatlar üçün institusional imkanları istisna etmir, əksinə onları müəyyən çərçivələr daxilində stimullaşdırır. İcra hakimiyyətinin legitimliyi yalnız səlahiyyətlərin genişliyi ilə deyil, bu səlahiyyətlərin hüquqi nəzarət, inzibati rasionalizasiya və nəticəyönümlü idarəetmə mexanizmləri ilə tamamlanması dərəcəsi ilə ölçülür. Bu baxımdan, gələcəkdə həyata keçirilə biləcək idarəçilik islahatları konstitusion əsasları zəiflətmədən, icra hakimiyyətinin funksional effektivliyini və institusional etimadını artırmaq potensialına malikdir. Nəticə olaraq, Azərbaycan təcrübəsi milli dövlət modelində güclü icra hakimiyyəti ilə konstitusion legitimlik arasında qurulan tarazlığın müasir dövlət idarəçiliyinin əsas dayaq sütunlarından biri olduğunu nümayiş etdirir.

## İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasının Konstitusiyası. e-qanun.az. URL: https://e-qanun.az/framework/897
2. Cəfərov, İ. Azərbaycan Respublikası Konstitusiyasının şərhi. Bakı: Hüquq ədəbiyyatı, 2004. 552 s.
3. Əliyev, Ə. Dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlər. Bakı: Elm və təhsil, 2010. 162 s.
4. Əsgərov, Z. Hüquqi dövlət və konstitusiya. Bakı: Azərbaycan, 2019. 277 s.
5. Əsgərov, Z. Konstitusiya hüququ. Bakı: Bakı Universiteti, 2002. 632 s.
6. İmanov, Ş. Konstitusiya – suveren idarəçiliyin və müasir dövlətçilik fəlsəfəsinin əsasıdır. URL: https://genprosecutor.gov.az/az/page/konstitusiya-ve-suverenlik-ili/meqaleler/konstitusiya--suveren-idareciliyin-ve-muasir-dovletcilik-felsefesinin-esasidir
7. Rəcəbli, H. Azərbaycan dövlətçiliyinin konstitusion əsasları daha da möhkəmləndirilir. Azərbaycan.-2016.-24 sentyabr.- S.1-6.
8. Xəlilov, Y. Azərbaycan Respublikası Konstitusiyasının preambulası və ümumi müddəalarının şərhi. Bakı: Qanun, 2007. 248 s.
9. Kaçanoğlu, H. Türkiye'de yeni cumhurbaşkanlığı hükümet sistemi: Başkanlık, yarı başkanlık ve parlamenter sistem üzerine karşılaştırmalı bir analiz. Kırşehir: Ahi Evran Üniversitesi, 2022. 169 s.
10. Demir, T. Public Administration Theory. In: Farazmand, A. (eds) Global Encyclopedia of Public Administration, Public Policy, and Governance. Springer, Cham, 2022. pp. 10529–10533.
11. Rosenbloom, D. H. Public Administrative Theory and the Separation of Powers. Public Administration Review, 1983, 43(3), 219–227.
12. Zabirova, A. New Parliamentary Model for Kazakhstan: What's at Stake. 22 January 2026. URL: https://caspianpost.com/analytics/new-parliamentary-model-for-kazakhstan-what-s-at-stake.

## Конституционные основы национального государства: опыт Азербайджана

**Эльдар Джамал Салаев**
***Докторант кафедры «Государственная служба и кадровая политика» Академии Государственного Управления при Президенте Азербайджанской Республики***

### РЕЗЮМЕ

Настоящая статья посвящена анализу конституционных основ модели национального государства в Азербайджанской Республике с позиций государственного управления. Основной целью исследования является системный анализ роли Конституции в формировании институциональной структуры государственного управления, распределении полномочий и обеспечении легитимности исполнительной власти. В статье обосновывается, что Конституция выступает не только как нормативно-правовой документ, но и как фундаментальная рамка, определяющая архитектуру управления, механизмы принятия решений и институциональную координацию. Особое внимание уделяется формированию модели усиленной исполнительной власти, системоинтегрирующей роли института Президента, функционированию Кабинета Министров как ключевого административного механизма, а также централизованной организации местных органов исполнительной власти на основе конституционных положений. В статье азербайджанская модель эпизодически сопоставляется с системами государственного управления Турции, Казахстана и Франции, что позволяет выявить функциональные преимущества конституционной централизации в контексте стабильности и управляемости государства. При этом подчёркивается, что легитимность исполнительной власти формируется не только за счёт широты её полномочий, но и посредством правового контроля, институциональной ответственности и эффективности управления. В условиях объявления 2025 года в Азербайджане Годом суверенитета особое внимание уделяется роли конституционных основ в укреплении управленческого потенциала национального государства и обобщаются институциональные возможности для дальнейших реформ.

**Ключевые слова:** *национальное государство, конституция, исполнительная власть, государственное управление, суверенитет.*

## Constıtutıonal foundatıons of the national state: the Azerbaijani experıence

**Eldar Jamal Salayev**
***PhD Student of the Department of Public Service and Personnel Policy at the Academy of Public Administration under the President of the Republic of Azerbaijan***

### SUMMARY

This article is devoted to the analysis of the constitutional foundations of the national state model in the Republic of Azerbaijan from the perspective of public administration. The main objective of the study is to provide a systematic examination of the role of the Constitution in shaping the institutional structure of public administration, the distribution of powers, and the legitimacy of executive authority. The article argues that the Constitution functions not only as a legal and normative document but also as a fundamental framework that defines the architecture of governance, decision-making mechanisms, and institutional coordination. Particular attention is paid to the formation of a strengthened executive power model, the system-integrating role of the presidency, the function of the Cabinet of Ministers as a key administrative mechanism, and the centralized organization of local executive authorities based on constitutional provisions. The Azerbaijani model is episodically compared with the systems of Türkiye, Kazakhstan, and France, highlighting the functional advantages of constitutional centralization in terms of state stability and governability. At the same time, the article emphasizes that the legitimacy of executive authority is determined not only by the scope of its powers but also by legal oversight, institutional accountability, and administrative effectiveness. In the context of declaring 2025 the Year of Sovereignty in Azerbaijan, the study underscores the role of constitutional foundations in strengthening the governing capacity of the national state and summarizes the institutional opportunities for future reforms.

**Keywords:** *national state, constitution, executive power, public administration, sovereignty.*

*Rəyçi: Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Ramid Hüseynov*
*Məqalə redaksiyaya daxil olub: 06.04.2026*
*Çapa qəbul olunub: 28.04.2026*

*The date of the admission of the article to the editorial office: 06.04.2026*
*Accepted for publication: 28.04.2026*